Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Milli qürur, qələbə və zəfər bayramı

*Zəfər bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait*

**Bakı – 2021**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,** *Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Milli qürur, qələbə və zəfər bayramı** – 8 noyabr Zəfər Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt. ed. K. Səmədzadə, S. Əhmədova; ixt. red. və burax. məsul Ş. Qəmbərova; red. R. Məmmədli; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası.- Bakı, 2021.- 53 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud statuskvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh

və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1.Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

## Giriş

***Mən müharibənin ilk günündən bu günə qədər – sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi.***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 3 dekabr 2020*

Azərbaycanın Vətən müharibəsində böyük qələbəsi şöhrət tariximizə qızıl hərflərlə yazıldı. Döyüş meydanlarında işğalçı ölkə ordusuna vurulan sarsıdıcı zərbələr, dünya diplomatiya savaşında cənab İlham Əliyevin qazandığı parlaq uğur, nəhayət, alınmaz qala olan Şuşanın geri qaytarılması noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə bəyanat imzalaması ilə nəticələndi. Bütün bunlar 30 illik münaqişə ilə bağlı yeni reallıqlar yaratdı. Özü də məhz Azərbaycanın xeyrinə olan reallıqlar, Azərbaycanın diktə etdiyi reallıqlar.

Qələbəyə zəmin yaradan əsas gerçəklik ondan ibarət idi ki, Azərbaycan Prezidentinin dekabrın 1-də xalqa müraciətində bəyan etdiyi kimi, biz yeni əsrin əvvəllərindən qüvvələrimizi səfərbər edib ölkəmizi gücləndirir, toparlanırdıq. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm də iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq ki, işğal altında olan torpaqlarımızı xilas edək. Ötən ilin payızında hakimiyyət, ordu və xalq birliyi sayəsində həmin gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və işğala son qoyduq.

Birinci Qarabağ müharibəsində zəbt etmiş olduğu mövqeləri ard-arda əldən verən Ermənistan İkinci Qarabağ müharibəsini cəmi 44 günə uduzdu. Mərdanə döyüşlə, əsgər, gizir və zabitləri-

mizin canı-qanı bahasına alınan bölgələrdən başqa, daha üç rayon –Ağdam, Kəlbəcər və Laçın özünün əsl sahibinə təslim edildi. Bu, hərb meydanında qazandığımız böyük qələbələrin siyasi-diplomatik yolla davamı oldu.

Bundan sonra hər il noyabrın 8-i ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Zəfər Günün mübarək, doğma Azərbaycanım! Xalqımız 30 il idi ki, bu günü böyük səbirsizliklə gözləyirdi. 1993-cü ilin ikinci yarısından başlayaraq, addım-addım bu günə yaxınlaşmışıq. Ancaq dünyada baş alıb gedən ədalətsizlik, ikili standartlar yolumuzda qaratikan kimi bitmişdi. Son 17 ildə həyata keçirilən qətiyyətli, cəsarətli, düşünülmüş daxili və xarici siyasət sayəsində, nəhayət, bu qaratikanlar tədricən məhv edildi, 10 noyabr 2020-ci il tarixində isə ölkəmizə qarşı uzun illərdən bəri davam edən işğalçılıq siyasətinə son qoyuldu. Mənfur erməni tapdağı altında qalmış ərazilərimiz artıq işğaldan azad edildi. Dünya dövlət başçımızın rəhbərliyi ilə rəşadətli ordumuzun tarixi qələbəsini heyranlıqla izlədi. Bəli, dövlət başçımızın 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə noyabrın 8-i Azərbaycanda Zəfər Günü elan edildi.

## Bölmə I
## Milli qürur, qələbə və zəfər bayramı

*Qalib gəldi cəsarətin,*
*Əqidənə sədaqətin.*
*mübarəkdir səadətin,*
*Qələbəli Azərbaycan.*

27 sentyabr 2020-ci il. Bu tarix xalqımızın yaddaşından, hərb tariximizdən silinməyəcək. Məhz həmin gün Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələnin başlanğıcı oldu. Öz murdar və çirkin əməllərindən əl çəkməyən, hər fürsətdə təxribatçı və fitnəkar hərəkətlərə əl atan, işğalçılıq və təcavüzkarlıq siyasətini davam etdirən, terrorçuluğu dövlət siyasətinə çevirən insanlıq düşməni nasist və faşist Ermənistan, quldur erməni silahlı birləşmələri növbəti dəfə atəşkəs rejimini pozdu, qanlı əməllərini, sülhə, təhlükəsizliyə təhdid olan niyyətlərini yenidən gerçəkləşdirməyə cəhd etdi. Dərhal Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun daha kəskin, daha sərt cavabı ilə qarşılaşdı. Səbir edən, dözüm göstərən Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu bir andaca səfərbər və tək yumruq oldu, düşmənin cavabının yalnız savaş olduğuna qərar verdi. Beləliklə, Qarabağ münaqişəsinin həllində hərb variantına keçildi, illərdir Qarabağa, işğal olunmuş torpaqlara qayıtmaq eşqi, həvəsi ilə alışıb-yanan Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu Vətən müharibəsinə başladı. Bəli, məhz Vətən müharibəsinə. Adına əks-həmlə, əks-hücum əməliyyatı desək də, bu, artıq Vətən müharibəsidir! 1994-ci il may ayının atəşkəsindən sonra başlayan, bizi zəfərlərə, qələbələrə səsləyən və aparan ikinci Vətən müharibəsi.

"Çox təəssüflər olsun ki, bizdən asılı olmayan səbəblər üzündən 1988-94-cü illərdə davam edən Birinci Qarabağ savaşını, Vətən Müharibəsini acı da, ağrılı da, etiraf etmək nə qədər çətin olsa belə, uduzmaq, məğlub durumuna düşmək məcburiyyətində

qalmışdıq. Azərbaycanı gücsüz və müdafiəsiz görən yağı, zalım düşmən "arxalı köpək qurd basarcasına" torpaqlarımızın 20 faizindən çoxunu işğal etmiş, bir milyondan artıq insanımızı qaçqın və məcburi köçkün vəziyyətinə salmışdı. Təbii ki, bunlara tək özü nail olmamışdı. Arxasında dayananların, havadarlarının, çirkli çevrələrin, gözləri qandan, insanlıq dramlarından doymayan güc mərkəzlərinin, onlara Azərbaycan-Türk torpaqlarında qondarma dövlət yaradanların sayəsində nail olmuşdu. Ötən dövr ərzində - 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçılığını birmənalı pisləyən, onun işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edən qətnaməsinin qəbul edilməsinə baxmayaraq, onların heç biri icra edilməmiş, yerinə yetirilməmişdir. Düşmən qarşısında inadkar, müstəqil dövlət və dövlətçilik, inkişaf, tərəqqi yolunda inamla addımlayan Azərbaycanı gördü. Vətənimiz onların yaddaşlarındakı 90-cı illərin zəif, gücsüz, müdafiəsiz Azərbaycanı deyil, öz milli maraq və mənafelərini hər şeydən üstün tutan, bu yolda bütün çətinlikləri gözə alan və çətinlikləri bir-bir səbirlə, əzmlə aşan Azərbaycandır. Bu Azərbaycanla, onun qüdrətli lideri cənab İlham Əliyevlə zor, təhdid, diktə dilində danışmaq mümkün deyil və mümkün olmayacaq. Artıq Azərbaycan, onun lideri dünyanın oyun qaydalarını müəyyənləşdirir, artıq özü dünyanın söz və nüfuz sahiblərindən, nəinki yerləşdiyi bölgənin, bütövlükdə dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilib. O, diktə edir, o, şərt qoyur... Ona görə də hər vəchlə, xüsusilə, işğalçı Ermənistanın fitnəkarlıqları və təxribatları ilə bir daha Azərbaycanın iradəsini, inkişaf və mübarizə əzmini sındırmağa, məhv etməyə yönələn bütün addımlara baş vurulur. Bu, açıq-aşkar iyul-Tovuz hadisələrində, Ermənistanın hədəflədiyi növbəti qanlı təxribat hərəkətlərində də özünü göstərdi. Düşmən, Qarabağdan yüz kilometrlərlə uzaqda olan Tovuza hücum etməklə, Azərbaycanı bütün dünyanın qarşısında nüfuzdan salmağa, dünya miqyaslı layihələrin icrasını dayandırmaqla, onu etibarsız tərəfdaşa çevirməyə, fakt qarşısında qoymağa çalışdı. Amma bu dəfə də alınmadı, Azər-

baycan dövləti, Azərbaycan Ordusu düşmənə və onu bizim üzərimizə qaldıranlara sarsıdıcı zərbə vurdu. Onlar artıq nə etdiklərini və nə edəcəklərini anlamayacaq, dərk etməyəcək dərəcədə rəzil və çıxılmaz durumdadırlar. Artıq onları bu dəfə heç nə, kimsə qurtara, xilas edə bilməyəcək. Hətta, arxalarında dayananlar, qanlı havadarları belə.

Bəli, Azərbaycan dövləti, ölkə Prezidenti dəfələrlə Ermənistana, onun başsız başbilənlərinə, siyasətbazlarına, erməni cəmiyyətinə öz çağırışlarını, öz xəbərdarlıqlarını etmişdi. Son görüşlərindən birində daha doğrusu Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşündə Azərbaycan Prezidenti birmənalı şəkildə demişdi: “Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm”.

Ermənistan və onun arxasında dayananlar isə bu açıq və birmənalı xəbərdarlıqdan dərs, nəticə çıxarmaq əvəzinə, bunun üstündən heç iki sutka keçməmiş növbəti yanlış və qanlı əmələ, təxribata əl atdı, atəşkəsi tam mənada pozdu və qarşısında daha əzmli, daha qərarlı Azərbaycanı gördü. Azərbaycan Silahlı Qüvvələrinə bütün cəbhəboyu əks-hücum əməliyyatına başlamaq əmri verildi, işğal edilmiş torpaqlarımızın son qarışınacan azad edilməsi kimi müqəddəs vəzifə tapşırıldı. Artıq müzəffər və müsəlləh Azərbaycan Ordusu düşmənə əsl, layiqli və haqq etdiyi cavabını verməkdədir, verir və verəcək. Sentyabrın 27-də Azərbaycan xalqına tarixi müraciətində və Təhlükəsizlik Şurasının iclasındakı çıxışında Ali Baş Komandan cənab İlham Əliyev artıq düşmənə güzəşt olmayacağını, onun layiqli cavabının verildiyini və sonacan veriləcəyini bildirdi. Dövlət başçımız dedi: “Dağlıq

Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun".

Bəli, cəmi bir neçə gün ərzində Azərbaycan Ordusu növbəti zəfər, tarix yazdı. İşğal altında olan Füzuli və Cəbrayıl rayonlarının 7 kəndi, Goranboy istiqamətində Murov dağı yüksəkliyindəki Murov zirvəsi, Ağdərənin Talış kəndi istiqamətindəki önəmli yüksəkliklər işğaldan azad edilib, nəzarətə götürüldü. Düşmənin 2300-dən çox canlı qüvvəsi məhv edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı: "Qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Çünki əziz qardaşımın çox açıq açıqlamaları və sərt bəyanatları bir daha göstərir ki, Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər..."

Bəli, Qarabağ münaqişəsi başlayandan bu günə kimi birmənalı mövqe ortaya qoyan, Azərbaycanın haqq işini dəstəkləyən, daim onun yanında olan məhz qardaş və dost, canı, qanı, ruhu bir olan Türkiyəmizdir. Ermənistanla heç bir siyasi-diplomatik əlaqə yaratmayan, Qarabağ məsələsində bir an olsun belə tərəddüd etməyən, başqa mövqe sərgiləməyən, bizə sözü, əməli ilə dəstək olan qardaş və dost Pakistandır. Həmçinin Əfqanıstan, Ukrayna hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında, haqqı

və haqlını müdafiə etməkdədirlər. Bəli, Azərbaycan haqq yolunda, haqq savaşındadır. Bizimlə, haqla olanları da, bizimlə olmayanları, haqqa göz yumanları da unutmuruq, unutmayacağıq. Cənab Prezidentin də bəyan etdiyi kimi, biz tamamilə haqlıyıq. “Bizim davamız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm, bu gün də deyirəm ki, biz haqq yolundayıq.”

Haqq savaşımız, Vətən müharibəmiz öz zəfəri, öz qələbəsi ilə başa çatdı. Qarabağımızın, işğal olunmuş torpaqlarımızın işğalına tam mənada son qoyulacaq, Şuşamızda, Laçınımızda, Kəlbəcərimizdə, digər Vətən torpaqlarımızda üçrəngli, ay-ulduzlu bayrağımız dalğalanacaq, dalğalandırılacaq, Qələbə, zəfər marşları çalınacaq, Şəhidlərimizin ruhları sevinəcək. Buna adımız kimi əminik! Allah Səni qorusun Azərbaycan dövləti, Azərbaycan əsgəri. Şərəfin, qürurun, Qələbən mübarək!

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Yola saldığımız 2020-ci il müstəqil Azərbaycanın hərb tarixinə qızıl hərflərlə şanlı səhifə kimi yazıldı. Müdrik Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında olan torpaqlarımızı erməni qəsbkarlarından təmizlədi. 44 günlük Vətən müharibəsində Qarabağ işğaldan azad edildi, xalqımızın 30 illik yurd həsrətinə son qoyuldu. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik…

“Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi” söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir ki, dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!

44 günlük müharibənin sonu olaraq 3 dekabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Zəfər gününün təsis edilməsi ilə haqqında imzaladığı sərəncama əsasən tədbirlər planının keçirilməsi nəzərdə tutulmuşdur. Məlum səbəblər üzündən dünya ölkələri arasında sürətlə yayılmaqda davam edən virusla bağlı keçirilməsi vacib olan tədbirlərin hamısı onlayn şəkildə təşkil olunur. Yuxarıda qeyd etdiyimiz kimi, noyabr ayı artıq müasir tariximizin parlaq zəfər səhifəsi kimi yaddaşlarımıza həkk olundu. Elə bu münasibətilə 8 noyabr Zəfər bayramı mü-

nasibətilə respublikamızın hər bir yerində bayram tədbirlərinin keçirilməsinə start verilmişdi. F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq biz kitabxanaçıların da ən ümdə vəzifəsi işğaldan azad olmuş Qarabağ torpaqlarımız haqqında il ərzində keçiriləcək tədbirlərin planını hazırlamaqdır. Plana əsasən kitabxanalarda, muzeylərdə, təhsil ocaqlarında, lisey və gimnaziyalarda və s. yerlərdə Zəfər bayramı ilə əlaqədar sərgilərin təşkili, Qarabağ torpaqlarına virtual səyahətlərin təşkili, döyüşlərdə şəhid olmuş əsgərlərimizin anım günlərinin keçirilməsi, şəhid ailələri ilə görüşün təşkil olunması, ədəbi-bədii kompozisiyaların, oxucu konfranslarının, şeir və rəsm müsabiqələrinin və bu kimi tədbirlərin onlayn qaydada təşkilinin keçirilməsi nəzərdə tutulur. İlk növbədə kitabxanada onlayn qaydada kitab sərgisi təşkil olunur. Sərgi müxtəlif adlar altında keçirilə bilər. Sərgidə Qarabağ mövzusuna dair kitablar, dövri mətbuatda nəşr olunan qəzet və jurnal materialları, azad olmuş torpaqlarımız haqqında hazırlanmış bukletlərdən, yaddaş kitabçalarından, Qarabağ haqqında atalar sözlərindən, bayatılardan istifadə etmək olar. Kitab sərgisi ilə yanaşı foto sərginin keçirilməsi də məqsədəuyğun olar. Beləki, işğaldan azad olunmuş rayonlarımızın tarixi və memarlıq abidələrinin foto sərgisi də paralel onlayn şəkildə nümayiş oluna bilər.

**"Tarixi Qələbə və böyük qayıdış" adlı kitab sərgisinin nümayişini sizlər üçün təqdim edirik.**

1. Başlıq: **"Tarixi Qələbə və böyük qayıdış"**
2. Kitabların nümayışı.
3. Dövri mətbuatda nəşr olunan məqalələrin kartotekası.
4. Görkəmli insanların Qarabağ haqqında söylədikləri sitatlar.
5. "Qarabağ həqiqətləri" bukletlər toplusu.
6. Şeir parçası.

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşam üstü qoy uzaqdan*
*Havalansın xanın səsi,*
*Qarabağın şikəstəsi*

## Görkəmli şəxsiyyətlərin söylədikləri

Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Şəhidlərin xatirəsinə qoyulan abidə müstəqil Azərbaycan dövlətidir.

**Heydər Əliyev,**
*Ümumilli lider*

Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çaldıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Azərbaycan öz torpaqlarını qaytarmaq və müdafiə etmək qüdrətinə malikdir.

Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

"Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək.

Gözəlliyinə qurban olduğumuz Laçın, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər artıq azaddır. Bu gün Azərbaycanın mili şairi, böyük mücahid Əhməd Cavadın, Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq ana vətəni ilə qucaqlaşmış, otuz illik həsrət sona çatmışdır. Bundan sonra Türkiyə və Azərbaycan olaraq hədəfimiz bu torpaqları firavan, inkişaf etmiş, övladlarımız üçün yaşana bilən bir yerə çevirmək uğrunda mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir.

**Rəcəb Tayyib Ərdoğan,**
*Türkiyə Respublikasının Prezidenti*

Azərbaycan mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər!
Azərbaycan deyəndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər!

**Məmməd Araz,**
*Xalq şairi*

Vətən borclu deyil, biz borcluyuq Vətənə.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Şuşa bütün azərbaycanlıların ruhunun vətənidir.

**Anar,**
*Xalq yazıçısı*

Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan ola bilməz.

**Vasif Adıgözəlov,**
*Xalq artisti, bəstəkar*

Vətənində ölməyən insan iki dəfə ölər.

**İsmayıl Həbib Sevük,**
*Türk siyasətçisi*

Qılıncla alınan Vətən pulla satılmaz.

**İkinci Əbdülhəmid,**
*Osmanlı imperatoru*

Özünü vətəndaş zənn edən bir kəs
Vətənin dərdinə yad qala bilməz!

**Nikolay Alekseyeviç Nekrasov,**
*Rus şairi*

Həqiqi namuslu insan ailəsini özündən, vətənini ailəsindən, insanlığı isə Vətənindən uca tutmalıdır.

**Jan Leron Dalamber,**
*Fransız riyaziyyatçısı*

Öz Vətəninə mənsub olmayan insan bəşəriyyətə də mənsub deyil.

**Vissarion Qriqoryeviç Belinski,**
*Rus tənqidçisi və filosofu*

Vətən uğrunda ölüm həyatın davamıdır

**Cambul Cabayev,**
*Qazax şairi*

Vətən uğrunda ölüm qədər dadlı və şərəfli ölüm varmı?

**Kvint Flakk Horatsi,**
*Qədim Roma şairi*

Vətənə borcunu ödəmədən ölən insan bədbəxtdir.

**Jozef Fletçer,**
*Amerika yazıçısı*

## Vətən haqqında atalar sözləri və aforizmlər

- Ana kimi yar olmaz, Vətən kimi diyar.
- Bu dünyada şirin şey, bir anadır, bir Vətən.
- Bülbülü saldılar qəfəsə dedi: "Ay Vətən, ay Vətən". Buraxdılar, qondu tikan koluna, dedi: "Can Vətən, can Vətən".
- Dağ yeri - duman yeri, Yurd yeri - guman yeri.
- Dam dirək üstə durar.
- Doğma yurd şirin olar.
- Döyüş meydanında can versə insan xoşdur, namərdliklə qoyub qaçmaqdan.
- Dünyada Vətəndən əziz nə var?
- El bir olsa dağ oynadar yerindən
- El igidləri ilə tanınar
- El köçdü, oba qaldı.

- El öz dəlisini tanıyar.
- El tikəni yel yıxa bilməz.
- Eli dağlamaq olmaz, Ağzın bağlamaq olmaz.
- Hər ağac öz dibinə kölgə salar.
- Hər kəsə öz Vətəni əzizdir.
- Hər kəsi el istəsə, bülənd olar, ucalar.
- Hər quşa öz yuvası doğmadır.
- Köçən yurdun qədrini, düşən yurdda bilərlər.
- Ölər Koroğlu getməz bu yurddan.
- Qürbət görməyən adam vətən qədri bilməz.
- Sular hərəkətlidir, Torpaq bərəkətlidir.
- Torpaqda itki olmaz, Kötüksüz bitki olmaz.
- Uçan damın böyüklüyü bünövrəsindən bilinər.
- Uğrunda qan tökülən torpağa VƏTƏN deyilir
- Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı.
- Vətən elin evi, dayağıdır.
- Vətən həsrəti çəkdim, gözlərimə qan gəldi.
- Vətən uğrunda qan, dostunuz uğrunda göz yaşı, ailəniz uğrunda tər tökün.
- Vətəndən ayrı düşsəm, viran ollam, talannam.
- Vətənə gəldim, imana gəldim.
- Vətəni yadına düşən qərib ağlamasın, neyləsin?
- Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
- Vətənin tüstüsüdə şirindi.
- Yerlərdir haman yerlər, Görünməz oldu illər.
- Yersiz gəldi, yerli qaç.
- Yurddan çıxsan da, eldən çıxma.

**Qarabağ bayatıları**

Düzüm-dağım Qarabağ,
Cənnət bağım Qarabağ!
Biz odlar övladıyıq,
İlk ocağım - Qarabağ!

Qarabağ - böyük bağdı,
Dağı da - böyük dağdı.
Qarabağ bizim olub,
Bizim də olacaqdı.

Qarabağ bir cahandı,
Qarabağ canda-candı.
Qarabağın anası
Böyük Azərbaycandı.

Şuşanın yolu fərman,
Torpağı gözə dərman.
Sənə bir məktub yazım,
Yarı dərd, yarı dərman.

Qarqar çayı, axırsan,
Tər bənövşə qoxursan.
Gör necə bəxtəvərsən,
Novruzludan axırsan.

Əzizinəm, qara bax,
Bu tufana, qara bax,
Başımdı Azərbaycan,
Gözlərimdi Qarabağ.

Əzizinəm, tara bax,
Teli qırıq tara bax,
Kövrək bayatılarla,
Çağlat məni Qarabağ.

Bəli, bu gün fəxr və fəxarət hissi ilə qeyd etdiyimiz Zəfər bayramı münasibətilə kitabxanada keçiriləcək tədbirlərdən biri də

onlayn rəsm müsabiqəsidir. Qarabağ mövzusu haqqında təşkil olunan tədbir kitabxananın oxucuları və məktəbliləri arasında onlayn şəkildə keçirilir. Sərgidə yaxşı rəsm çəkmək bacarığı olan oxucular münsiflər tərəfindən I, II, III yerlər üzrə təltif olunurlar. “Rənglər mənim duyğularımda” adlı sərginin nümunəsini sizlərə təqdim edirik.























Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası yeniyetmələrdə vətənpərvərlik tərbiyəsi və təbliğində fəaliyətini davam etdirir. Vətən torpağına, millətə sədaqət hisslərini aşılamaq məqsədilə 8 noyabr Zəfər gününə həsr olunmuş “Rəşadətlə yaşayanlar ölümü fəth edənlər” adlı ümumrespublika hekayə müsabiqəsinə start verir. Müsabiqənin təşkilində əsas məqsəd xalqımızda hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərə milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hisslərin aşılanması, Vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin döyüş rəşadəti və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gələcək nəsillər üçün yeni bədii mətnlərin yaradılması, yaradıcı potensialı olan hər bir kəsi müsabiqəyə cəlb etməklə mövzu baxımından

müasir ədəbi əsərlərin yazılmasına stimul verməkdir. “Rəşadətlə yaşayanlar ölümü fəth edənlər” adlı hekayə müsabiqəsi 16 iyun - 15 sentyabr tarixlərində keçiriləcək.

**Müsabiqənin şərtləri:**

Yazılmış hekayədə fikirlər aydın və səlis ifadə edilməli, tarixləri dəqiq qeyd olunmalı;

Hekayələrdə əks olunacaq rəsmlər iştirakçıların özləri və yaxud dostları tərəfindən çəkilməli;

Hekayənin həcmi 4 səhifədən çox olmamalı;

İştirakçılar hekayə ilə yanaşı özləri haqqında məlumatı (ad, soyad, ata adı, oxuduğu təhsil müəssisəsi, bölmə, sinif, telefon nömrəsi, e-mail və s.) təqdim etməlidirlər. Müsabiqədə iştirak etmək istəyənlər, 15 sentyrabr 2021- ci il tarixinə qədər hekayələri kitabxananın elektron poçtasına və ya kitabxanaya göndərməlidirlər. Hekayə müsabiqəsi 03 noyabr 2021- ci il tarixində yekunlaşacaq. Müsabiqənin yekununda təqdim olunan hekayələr arasından ən yaxşısı seçilərək kitab halında nəşr olunacaq.

**Səhnəcik**

Hadisələr 2020-ci ildə Müstəqil Azərbaycanda cərəyan edir. 2016-cı ildə erməni işğalçılarından azad edilmiş Lələtəpə yüksəkliyi, 2018-ci ildə - 26 ildən sonra işğaldan azad olunmuş Günnüt kəndi 2020-ci il oktyabr ayının 3-də düşməndən azad edilən Suqovuşanın pişvazına çıxıb onu salamlayırlar.

**Lələtəpə:** Xoş gördük, Suqovuşan! Azadlığın, azad adın mübarək!

**Günnüt:** Bilirsənmi, “İrəli!” deyə sənin xilas əmrini verən xalqın O böyük oğlu, lideri özü müjdələdi sənin azadolma xəbərini, sənin xilaskarlarına təşəkkür etdi?!

**Lələtəpə:** Bu sevinc azadlıq hüsnünə ikiqat gözəllik gətirib!

**Suqovuşan:** Çox sağ olun, dostlar! Nəhayət, mən də anamız Azərbaycana qovuşdum! Məni gözəlləşdirən, hüsnümə yaraşıq verən köksümdəki doğma bayrağın al şəfəqidir!

**Lələtəpə:** Bu əziz gündə köksümüzdəki torpaqdan sənə hədiyyə gətirmişik!

**Günnüt:** Bu da əsl sahiblərimizin - azərbaycanlıların ulu babalarının yaşadığı ən qədim və əzəl Qaya Qızılqayadan! (Lalətəpə və Günnüt əllərindəki torpaqları Suqovuşana verirlər. Suqovuşan torpaqları ciyərdolusu iyləyir).

**Suqovuşan:** Ah, nə gözəl Vətən ətri gəlir! Şükür, qovuşdurana! Bilirsinizmi, bu günlərin həsrətilə necə alışıb yanırdım?

**Lələtəpə:** Bu həsrəti biz də az yaşamamışıq. Sən də otuz ilə yaxındır, azğın düşmən yuvasına çevrilib, öz övladlarına qənim kəsilənlərə yurd-yuva olmağa məhkum edilmişdin. Vaxtilə öz övladlarının qurub-yaratdığı su elektrik stansiyası düşmənə fayda verdikcə bilirik ki, yanıb-yaxılırdın. Axı qoynundakı qədim alban abidələri özü sənin tarixi Azərbaycan torpağı olduğunu sübut edir. Mənfur düşmənlər isə sənin gözəlliklərini turistlərə öz ata-babalarından qalmış miras kimi mədh edir, balıqartırma zavodu da tikməklə iqtisadi səmərəliliyindən bəhrələnirdilər. Aprel döyüşlərində igid oğullarımızın əsas xilas hədəfi olsan da, görünür, qismət bu günə imiş.

**Suqovuşan:** İşğalçı dövlətin Qarabağdakı qəsbkarlıqla, azğınlıqla ad çıxaran əsas hərbi bazasının köksümdə yerləşib öz övladlarımın qatilinə çevrilməsinə dözə bilmirdim. Cocuq Mərcanlı abadlaşıb gözəlləşdikcə, Nuh yurdunun vətənpərvər, hünərvər oğlu Günnütü salamlayıb onun xilaskarlarını mükafatlandıranda, köksünüzdəki bayraqlar Bakıda - qələbə ruhlu paradda zəfər yürüşü edərkən ümidim, inamım artır, bu günün gələcəyini gözləyirdim.

**Günnüt:** İndi artıq sən də azadsan. İgid əsgərlərimizin şimal istiqamətində irəliləməsinə, əraziyə nəzarət etmələrinə yardımçı olacaqsan. Ər oğlu ərlərimiz köksündə Ağdərə üçün təminat yollarına - Murov-Kəlbəcər-Tərtər yoluna nəzarət etməklə düşmənlərimizin hərbi imkanlarını məhdudlaşdıracaq, planlarını alt-üst edəcək, onları tezliklə diz çökdürəcək. Tezliklə öz xeyir-duanla onları Ağdama, Kəlbəcərə doğru uğurlayacaqsan. Axı sənin adın o qəhrəman, o cəsur, Vətən aşiqi Mübarizlə də bağlıdır.

**Suqovuşan:** Bilirsiniz, igid Mübarizimiz gecə ilə sinəmdə düşmən üstünə şığıyıb, onu al qanına qəltan edib qan qusdurduqca elə bilirdim, bir ordu vuruşur düşmənlə! Köksüm qabarırdı, dizlərinə taqət, qollarına qüvvət olmağa, bağrımda gizlədilən düşmən minalarından onu qorumağa çalışırdım. Beş saatın içində beş min il də keçsə, düşmənə unuda bilməyəcəyi dərs verdi, qan uddurdu onlara, tarix yazdı! Qoruya bilmədim onu, ilk laylasını qoynumda özüm çaldım, uyutdum! Murdar düşmən onun nəşinə belə, yaxın düşməyə cəsarət etmirdi! Kaş bu azad günümü öz gözləri ilə görəydi!

**Lələtəpə:** Qəm yemə, bax bu gün onun da ruhu Vətən göylərindən bizi şadlıqla seyr edir!

**Günnüt:** Bu gün səni, məni xilas edənlər də elə Mübarizlərdir!

Suqovuşan: Bilirəm, Günnüt, köksündəki Oğuz qəbiristanlıqları yaşının üç minillikdən çox olduğunu söyləyir. Adın-sorağın "Günortac daşı" kimi "Kitabi-Dədə Qorqud" dastanlarından gəlir. Başın az bəlalar çəkməyib! Uzun illər düşmən tapdağında inləmisən! Qoynundakı ciyərparələrin - Çanaxçı, Çivə Amağu kəndləri vaxtilə zorla düşmənə bəxşiş edilib. Səninlə yanaşı, 11 min hektara yaxın ərazini də nəzarət altına alan qeyrətli övladların İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ayıq-sayıq nəzarət edə bilir. Öz sahiblərin köksündə min bir büsat qurub əmin-aman yaşaya bilir, sənə doğma əllər sığal çəkib əkib-becərir, bəhrəni görür. Arpaçay Su Dəryaçası da artıq etibarla qorunur.

**Günnüt**: Lələtəpə, qalibiyyətimiz səninlə başladı. Bu xalq məğlubedilməzliyini, qüdrətini, rəşadətini ilk səninlə göstərdi! Sənin də tarixin, etnoqrafiyan, dəyərin hər kəsə yaxşı bəllidir. 2016-cı ilin şanlı Aprel döyüşlərində 40 dəqiqə ərzində halal sahibinə qovuşdun. Üzərində ayıq-sayıq keşik çəkən öz övladlarımız bu gün Cocuq Mərcanlını da məğrurluqla qoruyur, Horadiz qəsəbəsini və Füzuli rayonunu atəş nəzarətində saxlaya bilir.

**Lələtəpə:** Bəli, mənim də 1993-cü ildə bağrıma dəyən murdar düşmən tapdaqlarının, nəhayət ki, dörd ildir, rəddi-izi kəsilib.

2017-ci ilin fevral döyüşləri zamanı məni anam Azərbaycanın bağrından təkrar qoparmaq istəsələr də, igid, məğrur övladlarım buna yol vermədi. Bu oğullar bundan sonra da bizləri qoruyacaqlar! Onlar Mübariz ruhlu, Polad iradəlidirlər! İlham qətiyyətindən güc alanlardır! Dostlar, zəfər zəfər ardınca gəlir! Doğru deyiblər ki, xalq nazilər, üzülməz! Nəhayət, onilliklər sonra da olsa, həqiqət gün üzünə çıxdı (əli ilə Günnütü göstərir), sular duruldu Suqovuşana işarə edir), biz anamız Azərbaycana qovuşduq! Köksümüzdəki o bayraqları göz bəbəyimiz kimi qoruyaq! Onda bizim uğrumuzda şəhadət tapan ər oğullarımızın can əmanəti var!

**Günnüt:** Qoruyaq ki, bütün torpaqlarımız, doğma Qarabağımız da anamız Azərbaycana qovuşanda böyük qələbəni qeyd edəcək, bu bayraqlarımızla birgə zəfər yürüşü edəcəyik!

(Hər üçü qucaqlaşıb görüşür, əl-ələ verib xorla): - Biz qalibik, biz Vətənik, biz Azərbaycanıq! Ətrafdan döyüş səsləri gəlir. Azərbaycan əsgərlərinin “Qələbə!”, “İlhamla irəli!”, “Qarabağ Azərbaycandır!”, “Biz birlikdə güclüyük! səsləri yüksəlir...

Zəfər gününün keçirilməsi ilə bağlı “Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu” adlı onlayn video konfrans təşkil olunur. Onlayn şəkildə təşkil olunmuş konfransa ölkəmizin ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda şərəfli döyüş yolu keçmiş müharibə veteranlarını, qazilərimizi, yüksək rütbəli hərbiçiləri, kursantlari, məktəb şagirdlərini, müəllimləri, rayon və şəhər üzrə fəaliyyət göstərən kitabxanaçıları və s. dəvət etmək olar.

“Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu” adlı video konfransı kitabxanaçı açıq elan edir. Mənəvi dəyərlər bir cəmiyyətdə tarixən formalaşan, əksəriyyət tərəfindən qəbul olunan və ictimai münasibətlərdə mühüm rol oynayan, insanların həyat tərzini, seçimlərini müəyyən edən dünyagörüşü, kollektiv aidiyyətlik hissləri yaradan və milli şüurun əmələ gəlməsində mühüm rol oynayan vacib komponentdir. Bu dəyərlər tarixin müxtəlif dönəmlərində insanların mənəvi, əxlaqi normaları və baxışlarının nəticəsi olaraq ortaya çıxmışdır. Bir xalqın varlığı və milli kimliyinin qorunması onun mənəvi dəyərlərinə münasibəti ilə sıx

bağlıdır. Mənəvi dəyərlərimiz bizim bir xalq olaraq formalaşmağımıza böyük təsir göstərmiş, milli dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rol oynamışdır. Azərbaycan xalqının bir millət kimi formalaşması və milli dövlət qurmasının əsas amillərindən biri zəngin mənəvi dəyərlər sisteminə malik olmasıdır, başqa sözlə, zəngin mənəvi dəyərlər sisteminə malik xalq olmağımızdır. Çünki sözügedən dəyərlərin yaradıcısı xalqdır.

Tarixi təcrübə göstərir ki, öz tarixinə, soykökünə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər tarixi prosesdə "əriyib" yox olmuş və tarix səhnəsindən birdəfəlik itmişlər. Ona görə ki, hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli dəyərlərindən ayırmaq kifayətdir. Bir toplumun mövcudluğunun qorunub saxlanmasi üçün hər şeydən öncə onun varlığını özündə ehtiva edən milli-mənəvi dəyərlərini qoruyub saxlaması lazımdır.

Azərbaycanın ən yeni tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərinin şahidi oluruq. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu öndər xalqımızın Azərbaycançılıq ideologiyasının əsasında gələcəyə gedən yolunu böyük uzaqgörənliklə müəyyən etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli liderimiz Heydər Əliyev bu sahədə lazımlı addımların atılmasına zəmin yaratmışdır. Məhz bunun nəticəsində milli-mənəvi dəyərlər sistemimiz daha da güclənmiş, aşınmadan xilas olmuş, milli dövlətçiliyimizin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Ulu öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə böyük hörmət bəsləyən Ulu öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağ-

lılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində yazılıb: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır". Milli şüura, milli mədəniyyətə sahib olan cəmiyyətin mövcudluğu qloballaşma mühitində milli-mənəvi dəyərlərin və dövlətçiliyin əhəmiyyətini inkar edən düşüncə tərzinin yayılmasının qarşısını alır. Dövlətimizin bu məsələdə mövqeyi dünya ilə harmonik inkişaf fonunda milli dəyərlərin qorunmasından ibarətdir. Bu baxımdan gənclərin milli-mənəvi dəyərlər əsasında – milli ruhda tərbiyə alması vacib məsələdir. Bu gün dövlətin yüksək səviyyəli diqqət və qayğısının fonunda, eləcə də ölkəmizdən kənarda müstəqil formada inkişaf edən Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərin mənimsənilməsində, həm də təbliğində dinamik təbəqə kimi çıxış edir. Ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, "biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil bu ruhda tərbiyə almalıdır": 2020-ci il sentyabrın 27-də başlamış Vətən müharibəsi zamanı öz təntənəsini yaşayan dövlət-xalq birliyindən, bu birliyin əldə olunmasında və möhkəmlənməsində milli-mənəvi dəyərlərimizin rolunu daha aydın anlamaq olar. Tarixdən də məlum olduğu kimi, xalqın milli ruhu dövlətin siyasəti ilə daha da yüksəlir, onu regional və qlobal təhdidlərə qarşı səfərbər edir, qarşıya qoyulmuş hədəflərə, milli maraqların təmin olunmasına zəmin yaradır. Vətən müharibəmiz ölkəmizin müxtəlif etnik mənsubiyyətə malik vətəndaşlarının, bütövlükdə isə xalqımızın birlik və vəhdətinin alnıaçıq sınağı oldu, əslində, bütün millətimizin qəhrəmanlığı ən çətin şəraitdə nümayiş olunaraq bir daha təsdiqini tapmış oldu. Uzun illər aparılmış məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi 44 günlük aktiv müharibədə Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi zəfərə nail oldu. Müharibənin ilk günündən Ali Baş Komandanın qətiy-

yəti, zəfərə inamlı çağırışı böyük ruh yüksəkliyi yaratdı və dinindən, etnik mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq bütün vətəndaşlarımızın güc və enerjisini qələbəyə yönəltdi. Vətən müharibəsi göstərdi ki, lazım gəldikdə bütün ölkə vətəndaşları dinininindən, məzhəbindən, inancından asılı olmayaraq bir yumruq kimi birləşə bilir.

Beləliklə, tam əminliklə demək olar ki, Azərbaycan xalqı müxtəlif dini və etnik qruplardan təşkil olunsa da, onları birləşdirən müqəddəs dəyərlər var. Bu dəyərlərin içərisində ən ümdəsi ortaq Vətən və əsrlər boyu formalaşmış, qarşılıqlı hörmət və etimada əsaslanan mənəvi dəyərlərdir. Məhz bu mənəvi dəyərlər bizim Vətənimiz və milli dövlətçiliyimiz naminə birliyimizi möhkəmləndirir və gələcəyə gedən yolumuza işıq tutur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında 8 noyabr Zəfər günü münasibətilə təşkil olunan tədbirlərdən biri də onlayn söhbətdir.

“Vətənim Verdi mənə nanü-nəmək, vətəni məncə unutmaq nə demək” adlı onlayn söhbət bir çox şəhər və rayon kitabxanarı arasında keçirilir. Onlayn söhbətə kitabxanaçılarla yanaşı, şair və yazarlar, tarixçilər, C. Naxçıvanski adına Hərbi Liseyin tələbə və müəllim heyəti, oxucular qatıla bilər. Onlayn tədbirdə “Möhtəşəm Şuşa qalası” haqqında ətraflı söhbətlər aparılır.

Qarabağın Üçmıx zirvəsindən baxanda sal qaya üzərində böyük ustalıqla həkk olunan ilahi bir əsərə-Şuşa möcüzəsinə heyrətlənməmək mümkün deyil. Sanki gözlərinin qarşısında sehirli, qeyri-adi bir mənzərə açılır. Cıdır düzü, Topxana meşəsi, Daşaltı çayı, Xəzinə qayası, bir-birinə söykənən uca dağlar, ətəyində mürgüləyən dərələr, yaşıl çəmənlər çox məftunedicidir.

XVIII əsrin 50-ci illərində əsası Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşanın ilk çağlarda adı xanın şərəfinə Pənahabad adlanıb. Həm Pənahalı xanın dövründə, həm də oğlu İbrahim xanın dövründə şəhər böyüyüb, müdafiə bəndləri, qalalar tikilib. Şuşa Azərbaycanın əsas siyasi və mədəni mərkəzlərindən biridir. Şəhər Qarabağ regionunun inzibati və iqtisadi mərkəzi də

hesab olunurdu. Şuşa şəhəri-Azərbaycanın Şuşa rayonunun mərkəzidir. Ətraf meşələrdə və vadilərdə çoxlu mineral mənbələri, dərman bitkiləri və çiçəklər var. Azərbaycanın fəxri olan Xarı bülbül gülü də məhz bu ərazidə məskən salıb. Ərazinin 20%-ni meşələr təşkil edir. Şuşa Qarabağ silsiləsində 1400-1500 metr yüksəklikdə yerləşir. Dağ-iqlim kurortudur. Burada müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu və Şirlan) var. Əsas təbii müalicə vasitəsi Şirlanın bir neçə bulaqlarının dəmirli karbon sularıdır. Təbii müalicə vasitələrinə dağ iqlimi də aid edilir.

Şuşa həmçinin, xalçaçılığın qədim mərkəzi kimi də məşhurdur. Bu şəhərin xalçaları öz ölçülərinə, ornament və rənglərinə görə digərlərindən fərqlənir. Bütün dünyada məşhurluq qazanan Qarabağ atları bəslənən Cıdır düzü Şuşada dağın başında, Daşaltı çayından 200 metr hündürlükdə yerləşir.

Şuşanın ərazisində tarixi-memarlıq qoruğu, şəhərin tarixi muzeyi, "Daş yaradıcılıq" tarixi etnoqrafiya muzeyi, Üzeyir Hacıbəyovun və Bülbülün ev muzeyləri yerləşirdi. Burada Şuşa qalasının qalıqları, İbrahim xanın sarayı (XVIII əsr), XVIII-XIX əsrlərin yaşayış binaları və başqa tarixi və mədəni abidələri var idi. Şuşa Azərbaycan musiqisinin mərkəzidir. Azərbaycan operasının banisi olan bəstəkar Üzeyir Hacıbəyov, görkəmli opera müğənnisi Bülbül, Azərbaycan baletinin banisi A.Bədəlbəyli, şairə Natəvan, filosof-humanist şair, Qarabağ xanlığının vəziri-Vaqif, məşhur Şərq aləti olan tarı ilk dəfə sinəyəqaldıran Sadıqcan, Azərbaycan teatrının banilərindən biri publisist N.Vəzirov, görkəmli ədəbiyyatçı alim Firidun bəy Köçərli, Azərbaycan realist nəsrinin görkəmli nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev, ədəbiyyat tariximizdə özünə şərəfli yer tutan Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli və bu kimi ziyalı insanlar anadan olub.

44 günlük Zəfər gününün qeyd edilməsi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. Tədbir Zoom proqramı vasitəsilə onlayn

şəkildə məktəb şagirdləri arasında keçirilir. Cəfər Cabbarlının "Azərbaycan bayrağına" adlı şeir müsabiqəsinin nümunəsini sizlər üçün təqdim edirik.

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah? Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli, yaşıl otlar topasımı?
Xayır, Xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanıyor.
Kölgəsində ay əyilib bir gözəli qucmada,
Qucaşaraq sevdiyilə yüksəklərdə fırlanıyor.
Şu görünüş bir ananın şəfqətinə oxşuyor,
Düşündükcə zövqlərimi, vicdanımı oxşuyor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə belə söyləmək:
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yıldız da səkkiz hərfli OD YURDU
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur.
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Ürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

Tədbir xalq artisti Zülfiyyə Xanbabayevanın ifasında, sözləri Nəriman Həsənzadəyə aid musiqi ilə başa çatır.

**Azərbaycan**

Od ürəkli, od nəfəsli diyarımsan
Ocağına canım qurban, Azərbaycan !
Əzilsən də, əyilməyən vüqarımsan
Bu çağına canım qurban, Azərbaycan!

Savaşlardan alnıaçıq çıxan zaman
Tarixlərə bağışladın neçə qurban.
Hər qonşuda bir parçası əsir qalan
Torpağına canım qurban, Azərbaycan !

Neçə gizli sərvət yatır qucağında,
Neçə ölkə od aparır ocağından.
Azadlığın al rəmzi var bayrağında
Bayrağına canım qurban, Azərbaycan!

Hər uğurun gələcəyə bir yol açır,
Hər dost elə xoş niyyətin işıq saçır.
Hər millətə, hər məzhəbə isti, açıq
Qucağına canım qurban, Azərbaycan !

Başım üstdə məğrur-məğrur dalğalanan
Bayrağına canım qurban, Azərbaycan!
Ruhuma büt, cismim üçün vətən olan
Torpağına canım qurban, Azərbaycan!

F.Köçərli adına Respublika Uşaq Kİtabxasında Zəfər günü ilə bağlı “Əsgərə məktub” adlı onlayn tədbir təşkil olunur. Tədbirdə 125 saylı məktəbin şagirdi Şərqiyənin əsgərə məktubunu səsləndiririk.

Salam əsgər!. Mənim adım Şərqiyyədir. 10 yaşım var. 125 nömrəli məktəbin 5 "a" sinfinin şagirdiyəm. Mənim anam hərbi hospitalda işləyir. Həm də mənim dayımda komandirdir, cəbhədədir. Mən anam və dayım üçün çox darıxmışam. Mənim ən böyük arzum budur ki, torpaqlarımız alınsın və anam, dayım evlərinə qayıtsın. Sağ ol, əsgər. Özünü və vətəni qoru.

Tədbirdə iştirak edən oxuculara cəbhə bölgəsində xidmət edən əsgər və zabitlərimizə məktub yazmaları tövsiyyə olunur.

10 noyabr Zəfər gününün qeyd edilməsi ilə bağlı təşkil olunan tədbirlərdən biri də Hərbi qənimətlər Parkına ekskursiyadır. Kitabxanaçı bir sıra mədəniyyət, təhsil işçiləri, fəal oxucular, məktəb şagirdləri, şair və yazıçılar, kitabxana işçiləri ilə Hərbi Qənimətlər parkına ekskursiya edirlər. Ekskursiyaya gələn qonaqlara parkın bələdçisi parkın yaradılması və onun tarixi haqqında bir qədər məlumat verir.

Əziz, tədbir iştirakçıları!. Bildiyiniz kimi, "Bakıda Hərbi Qənimətlər Parkının yaradılması Zəfər tariximizin şanlı səhifələrindən biridir. Bu parkın açılması Vətən müharibəsində rəşadətli Ordumuzun qarşısında Ermənistan ordusunun acizliyini ifadə edir. Park İkinci Qarabağ müharibəsində ordumuzun gücünü, işğalçı Ermənistanın isə sarsıdıcı məğlubiyyətini özündə əks etdirir".

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük müharibədə parlaq qələbə qazandı. Azərbaycanın yeni müharibə nümunəsi dünyada böyük əks-səda doğurdu: "İkinci Qarabağ müharibəsi birmənalı şəkildə Azərbaycanın gücünü göstərdi. Azərbaycan XXI əsrin müharibəsini apardı. Güclü hərbi potensialı olan ölkələr də İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənir, öz ordularını müasir standartlara və tələblərə uyğunlaşdırmaq istəyirlər". Gördüyünüz kimi, Park Dənizkənarı Milli Parkında yerləşir. Park Azərbaycan Silahlı Qüvvələrinin İkinci Qarabağ müharibəsində qazandığı qələbəyə həsr olunub. Parkda Ermənistan Silahlı Qüvvələri məxsus olduğu bildirilən, Rusiya istehsallı tank, "Qrad" qurğuları, top

və digər müharibə texnikası nümayiş etdirilir. Azərbaycan prezidenti İlham Əliyevin “Qələbə” tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir. Parkın mühəndis-maneələr sistemini ehtiva edən ərazisində 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Parkda döyüş postu və əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Parkda müharibədə həlak olan yüzlərlə erməni əsgərinin dəbilqələri və Ermənistan Silahlı Qüvvələri qoşunlarının mum manikenləri nümayiş etdirilir. Tədbir Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sitatı ilə başa çatır.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Zəfər günümüzün qeyd edilməsi ilə bağlı təşkil olunan tədbirlərdən biri də. “Yolun düşsə, bu dünyaya bir də gəl” adlı anım günüdür. Tədbir onlayn şəkildə baş tutur. Tədbiri şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla anaraq açıq elan edirik. Tədbir 1-ci Qarabağ müharibəsində iştirak edən hərbiçilər, qazilər və 44 günlük müharibənin sonu zəfərlə başa çatan 2-ci Qarabağ döyüşlərində şəhid olmuş şəhidələrimizin xatirəsinə həsr olunur. Çox çətin, məsuliyyətli həm də şərəfli bir tədbirin təşkili üçün özümüzü borclu bilirik. Təbdbirə Qarabağ müharibəsində iştirak etmiş hərbiçiləri, müharibə zamanı sağlamlığını itirmiş qazilərimizi və 44 günlük müharibədə şəhidlik zirvəsinə ucalmış şəhid bacı və qardaşlarımızın valideynlərini, övladlarını, döyüş yoldaşlarını və s. dəvət etmişik. Tədbir 44 günlük mübaribədə igidlik göstərərək, ən ali zirvə olan şəhidlik zirvəsinə ucalan Xudayarın səsi ilə başlayır. Torpaqlarımıza azadlıq gətirənlərın sırasında onun da imzası var: 22 yaşlı şəhid gizir Xudayar Yusiflinin. Vətən savaşında qəhrəmanlıq göstərməklə yanaşı, məlahətli səsi ilə dəstək olub döyüş yoldaşlarına. Düşmən tapdağından təmizlənən Vətən torpağını elə vətəni tərənnüm edən ifalarla salamlayaraq həmin tarixi anları telefonun yaddaşına köçürüb. İfa etdiyi mahnıda deyilir ki:

“Şair, sorma vətən nədən yaxşıdır
Adı gəlcək könlüm dastana döndü....”



Özü də dastana döndü... Cəsurluğu, mərdliyi, qəhrəmanlığı ilə yazdı dastanını şəhid gizir Xudayar Yusifzadə. 22 il əvvəl Bərdənin Qazıqurdalı kəndində doğulub. Dünyaya göz açdığı 24-cü gündə atası vəfat edib. Ona görə də nənəsinin himayəsində böyüyüb. Əslində, musiqiçi ola bilərdi. Bərdə 1 saylı uşaq musiqi məktəbini xanəndəlik ixtisası üzrə

bitirmişdi. Amma hərb sahəsini seçir. Hərbi xidmətindən sonra kiçik gizir hərbi rütbəsi alaraq sərhədlərimizin keşiyində dayanır. Xudayarın ən böyük arzusu Qarabağın incisi, baş tacı Şuşanı görmək olub. Elə 9 yaşında ifa etdiyi məşhur "Şuşanın dağları" mahnısını da orada oxumaq istəyirdi. Qismət deyilmiş. Oktyabrın 23-də Zəngilanın Ağbənd qəsəbəsi uğrunda döyüşdə ağır yaralanan Xudayar Yusifli şəhidlik zirvəsinə ucalır. İndi Xudayardan geriyə qalan Zəngilanda oxuduğu "Vətən yaxşıdır" mahnısıdır. Sosial şəbəkələrdə ən çox izlənən bu video həm də ailəsinin təsəlli yeridir. O, Şuşanı görməsə də, Şuşa da azad oldu və Şuşada dalğalanan üç rəngli bayrağın qırmızısında bütün şəhidlərimiz kimi Xudayarın da qanının rəngi var. Xudayar Yusifzadə 1998-ci il iyulun 15-də Bərdə şəhərində anadan olub. Doğulduğu gündən 24 gün sonra Bərdənin tanınan qarmon ustalarından olan atasını (Müslüm Yusif oğlu) itirib. Ailədə 4 uşaq-3 qardaş və 1 bacı olublar. Xudayar Yusifzadə ailənin son beşiyi olub. Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncə-sənət Məktəbini bitirib. X.Yusifzadə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində müvəqqəti hərbi xidməti bitir-dikdən sonra, Sərhəd Qoşunlarında gizir kimi həqiqi hərbi qul-luğa başlayıb. Tovuz döyüşlərindən sonra könüllü olaraq döyüş-mək üçün müraciət etmişdir. Füzulinin azad olunmasından sonra oradakı yeni yaradılmış sərhəd keçid məntəqəsində xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-dən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmiş-dir. Füzulinin, Kəlbəcərin, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 22 oktyabr 2020-ci ildə Zəngilan rayonunun Ağbənd qəsəbəsi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Bərdə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.



Məmmədağa Balakişi oğlu Səfərov 1997-ci ilin 10 mayında Bakıda anadan olub. Yasamal rayonu A.Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseydə oxuyub. Sonra Türkiyənin Balıkəsir Universitetinə daxil olub. 2019-cu ildə son kursda olarkən Vətənə qayıdır, hərbi xidmətə gedəcəyini və təhsilini sonra davam edəcəyini bildirir. 2019-cu ilin oktyabrında əsgəri xidmətə yollanır.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayandan sonra Məmmədağa Səfərov Cəbrayıl, Füzuli rayonlarının azad edilməsi uğrunda döyüşlərdə iştirak edir. Oktyabrın 21-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir.

Videoçarxda şəhidin anası Rəna xanım tərəfindən kitabxanaya təqdim edilən fotolar və həyatı haqqında məlumatlar yer alır.

Məmmədağa Səfərov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunub.



Qarabağ müharibəsi...

İlk hərbçi xanım şəhid...

Bu təyinlər hər biri özlüyündə bir mənəvi ünvandır. Hər biri haqqında ayrı-ayrılıqda dastanlar yazmaq olar. Arəstə Baxışova bu ünvanların hamısını öz həyat və fəaliyyətində birləşdirməyi bacardı. Üstəlik, o, Çernobıl facisənin qarşısının alınmasında iştirak etmiş veteran atanın övladı idi. Yetimlik görmüşdü o... Hərbçi olmaq arzu ilə böyümüşdü... Sonra özü valideyn olmuşdu... İki gül balası bizlərə əmanətdir artıq... Arəstə öz cavan ömrü ilə ömür - ömür xatırlanacaq...

İkinci Qarabağ müharibəsinin ilk hərbçi qadın şəhidi! Bu şərəfli titulun sahibini unutmaqmı olar?..

Arəstə Baxışova yaralı hərbçilərimizi döyüş meydanından çıxararkən şəhid olub. Əsl hərbçi, əsl şəfqət bacısı, qadın qüdsiyyəti, Azərbaycan xanımı xeyirxahlığı ilə onun özü şəhadət şərbəti içib... "Yaralı hərbçilərimizi döyüş meydanından çıxararkən!.." – vəzifənin müqəddəsliyi bu olsa gərək! Ömrün naxışı, bəzəyi bu olsa gərək...

Şəhidin anası Məktubə Baxışova qızının cəbhəyə könüllü olaraq getdiyini bildirdi. Onsuz da könlümüzdə taxt qurmuş, ruhuna əbədi ehtiramımız olan uca könüllü Arəstə bu könüllülüyü ilə daha yeni ucalıq mərtəbəsi qazandı...

Anası danışır: "Dedi ki, "Ana, mən müharibəyə getmək istəyirəm, uşaqlar sənə əmanət. Hərənin bir qisməti var, əgər Vətən uğrunda şəhid olacağamsa, bu mənim başımın ucalığı olacaq... O, ölümdən qorxan qız deyildi".

Xanım şəhidimizin 10 yaşlı qızı Zəhra anası ilə qürur duyduğunu deyir. Danışanda ürəyinin özündən böyük olduğunu hiss etdim. Mənə elə gəldi, o da, qardaşı da analarının şəhid olduğunu bildikdən sonra birə - beş böyüyüblər... – yaşlarından irəli danışırdılar sanki: "Anam mənimlə fəxr edirdi, mən də indi anamla fəxr edirəm; fəxr edirəm ki, Vətən uğrunda şəhid olub"...

Arəstə xanımın 11 yaşlı oğlu Mərdan isə əziz anası ilə son telefon danışıqlarını xatırlatdı: "Hər dəfə zəng edərdi, soruşardı. Bir gün ard-arda zəng etdim, cavab vermədi. Xeyli sonra telefonu açdı, səsi bir təhər gəlirdi. Düşündüm ki bəlkə xəstələnmiş olar – dedi, yox, yaxşıyam, problem yoxdur. Sonra dedi, bacına yaxşı bax; nənənin sözündən çıxmayın, dərslərinizi vaxtlı-vaxtında oxuyun".

Artıq Zəhra və Mərdan bizlərə əmanətdir, onlar yalnız mənsub olduqları ailənin övladları sayılmır artıq... Çünki anaları bir evdən çıxdı, bir elin qızı, bir ulusun qəhrəmanı oldu. Qəhrəmanlıq, fədakarlıq isə unudulmur. Məşhur kəlamda deyildiyi kimi: "Heç nə unudulmur, heç kim yaddan çıxmır"! Çox əminəm ki, əziz

Arəstə bacımızın ruhu indi şaddır. Şaddır çünki Şuşanı azad etdiyimizi bilir, müharibədə zəfər çaldığımızı bilir. Bilir ki, bu millət, bu dövlət öz şəhidini həmişə əziz tutacaq! Şəhid ailəsi baş tacımız olacaq!

Şəhid Arəstə Baxışova! Bilirsinizmi Arəstə adı nə anlama gəlir? Görün nə taledir ki, şəhidimizin adı taleyi ilə üst-üstə düşür: "Bəzənmiş, bəzəkli, yaxud nizam və qaydası yerində olan"...

Şəhid adından gözəl ad, bundan gözəl Tanrı bəzəyi, İlahi naxış varmı? Bir hərbçi üçün nizam və qaydası yerində olmaq da "olmazsa olmaz"lardandır... Arəstə Baxışova sanki öz gözəl aqibətinə, öz əbədiyyət yolçuluğuna baxış içində olub ömrü boyu...

Ruhun şad olsun, əziz bacım!

İlahi yolçuluğun mübarəkdir!



"Öləndə hamı kəfənə bükülür, amma cənazəsi üzərində üçrəngli müqəddəs bayrağımızla şəhadətə qovuşmaq hər kəsə nəsib olmur..." Bu, Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun əsgərlərinə söylədiyi son kəlmələrdir. Orxan kiçik yaşlarından atasını – polis mayoru Nadir Əkbərovu xüsusi geyimdə görmüşdü. Atası 90-cı ilin əvvəllərində mənfur ermənilərin törətdiyi qətliamlardan danışarkən Orxan ona diqqətlə qulaq asardı...

Orxan Əkbərov 2004-cü ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra Füzuli rayonundakı hərbi hissədə bölük komandiri kimi fəaliyyətə başlayıb. 20 ilə yaxın qüsursuz xidməti komandanlıq tərəfindən də dəyərləndirilib və polkovnik-leytenant Orxan Əkbərov kəşfiyyat hərbi hissəsinin

komandiri vəzifəsinədək yüksəlib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda öndə gedənlərdən olub.

Şəhid anası Sevil Abdullayeva: "Orxan evə sonuncu dəfə sentyabrın 25-də gəlmişdi. Əlindəki telefonun zəngləri susmurdu. Bir zəng gəldi, tələsik həyətə çıxdı, danışıb qayıtdı. Qayıdan kimi dedi ki, gedirəm... Bu gün döyüş yoldaşları onun qəhrəmanlığından danışır. Ali Baş Komandanımız oğlumu Vətən Müharibəsi Qəhrəmanı adı ilə təltif edib. Qürur duyuram ki, qəhrəman anasıyam".

Silahdaşı mayor Bəhruz Kərimovun bildirdiyinə görə, müharibənin ilk günü Füzuli-Cəbrayıl istiqamətində Qaraxanbəyli, Horadiz kəndi, Böyük Mərcanlı, Nüzgar kəndlərinin işğaldan azad olunması zamanı Orxan Əkbərov döyüşçülərlə ön xətdə olub. Qeyri-bərabər döyüşdə düşmənin 200-dən çox canlı qüvvəsi, silah-sursatla dolu 6 yük maşını məhv edilib. Bu istiqamətdə qızğın döyüşlər sonrakı günlərdə də davam edib. Ön xətdə növbəti döyüş əməliyyatı zamanı mühasirəyə düşəcəklərini hiss edən kəşfiyyatçı əsgərlərinə dərhal mövqedən uzaqlaşmağı əmr edib. Özü isə qəhrəmancasına şəhid olub.

Şəhidin qardaşı Elnur Əkbərov: "Allah bütün şəhidlərimizin ruhunu şad eləsin. Qardaşım Qarabağı işğalçılardan azad etdi. Şəhid Mübarizlərin intiqamını aldı".

2020-ci il oktyabrın 6-da şəhidlik zirvəsinə ucalan Orxan Əkbərovun kiçik qardaşı Ənvər də cəbhənin ən qaynar nöqtələrində xidmətdə olub, hazırda mayordur. İndi bu vətənpərvər ailədə Orxanın iki nişanəsi böyüyür – Sevil və Çingiz. Onlar da tarix yazan qəhrəman ataları ilə daim qürur duyacaqlar!

8 Noyabr Zəfər gününün qeyd edilməsi münasibətilə təşkil olunan tədbirlərdən biri də Qarabağa virtual səyahətdir. Onlayn şəkildə təşkil olunan tədbirdə Qarabağın füsunkar təbiəti, yaşı minilliklərlə ölçülən abidələri, qonaqpərvər insanları və zəngin mədəniyyəti ilə tanış olacağıq.




**Azərbaycanın incisi, Qarabağın mirvarisi Şuşa**

Şuşa Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Bu şəhərin adını bildirən "Şuşa" sözü, bu diyarın saf, qeyri-adi dərəcədə şəffaf dağ havasının rəmzi olan "şüşə" sözündəndir. Təbiət Şuşaya unikal bulaqlar və mineral sular bəxş edib. Turşsu, İsabulağı, Səkinə bulağı, İsti bulaq, Soyuq bulaq, Çarıx bulaq, Saxsı bulaq, Qırx bulaq, Yüz bulaq və başqa bulaq adları bunu sübut edir. Şuşa həm də öz tarixi memarlığı ilə məşhurdur. Burada işğala qədər 129 memarlıq abidəsi yerləşirdi.

*Şuşa qalası* — Azərbaycanın Şuşa şəhərini əhatə edən qala divarlarıdır. Qala uzun müddət ərzində şəhəri xarici müdaxilələrdən qoruyub, uzun müddət alınmazlıq simvolu olub. Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşü zamanı qala uzun müddət mühasirədə saxlanılıb. Lakin qalanı ələ keçirmək cəhdləri baş tutmayıb. Ərazi strateji baxımdan olduqca əlverişlidir. Belə ki, Şəki qalasında olduğu kimi Şuşa qalası da yüksək dağlıq ərazidə yerləşir. Qarabağ xanı Pənahəli xan Bayat qalası və Şahbulaq qalasının əlverişsiz coğrafi mövqeyini nəzərə alaraq, 1753-cü ildə Şuşa qalasının bərpa edilməsi haqqında qərar verir və Qarabağ xanlığının mərkəzi bura köçürülür. Qala bərpadan sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılıb. Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikil-

məsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qarışığından istifadə edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Qala yaxınlığında qalanı xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilib ki, bu körpü Qala körpüsü kimi tanınır.

**Vətənimizin Zümrüd qaşı Kəlbəcər**



Azərbaycanın bir parçası olan Kəlbəcər atlas geyimli, mənzərəli dağlarla əhatə olunmuş, insanların sidq ürəklə bağlandığı məkanlardan biridir. Geniş əraziyə, əsrarəngiz relyefə malik olan bu diyarın gözəlliklərini beyninə həkk edib, sonra da onu naxış üzərinə köçürmək hər kəsin hünəri deyil! Keçmiş sovetlər dövründə də Kəlbəcər təbii sərvətləri ilə məşhur idi. "İstisu" sanatoriyasının sorağı ilə dünyanın müxtəlif guşələrindən buraya axın-axın insanlar gəlir, müalicəvi su ilə sağlamlıqlarını bərpa edirdilər. Kəlbəcər uzunömürlülər diyarı adlanırdı. Azərbaycanın zümrüd qaşı, zirvələrin tacı idi. Təbiətin Kəlbəcərə bəxş etdiyi min bir nemətdən biri də bizi dünyaya tanıdan və loğman kimi insanlara sağlamlıq bəxş edən məşhur "İstisu" sanatoriyası idi. Dəlidağ, Murov, Kəpəz, Qoşqar, Qoçdaş, Laçın-qaya, Alagöllər, Gəlin qayası, Sarıyer, Ceyranbulağı və digər yerlər mahir bir rəssam fırçasından çıxmış tablonu xatırladır.

Kəlbəcər bir yandan Murov, Kəpəz dağları silsiləsi, bir tərəfdən Göyçə dağları, bir tərəfdən Dəlidağ və Cermux dağları, bir tərəfdən də Laçın dağları ilə əhatə olunmuşdur. Bura aran tərəfdən isə Ağdam və Ağdərə ərazilərinə çıxışı olan bir bölgədir. Bu qədim Oğuz yurdunun kökləri Qafqaz Albaniyasından da o yana gedib çıxan türk məskəni olub. İlin yaz, yay fəsillərində dağların sinəsində bir vaxtlar çadırlar qurulur, insanlar təbiətin

qoynunda istirahətlərini mənalı keçirir, kəhər atlar kişnəyir, telli sazlar köynəkdən çıxır, el aşıqları elə bir çal-çağır edirdilər ki, gəl görəsən! Çoxları Kəlbəcər ellərinə Dədə Şəmşirin sorağı ilə ayaq basardı. Yerli sakinlər əsasən əkinçilik və heyvandarlıqla məşğul olardılar. Hər eldə, hər obada Vətən sevgisi, bolluq-bərəkət duyulurdu. Kəlbəcərlilər qonaqpərvər idi, hansı neməti desən süfrələrində tapmaq mümkün idi. Akademik Budaq Budaqovun söylədiyi kimi, "Kəlbəcər hər yandan qıfıllı dərənin yuxarı axınının mərkəzində, geniş dağ düzənliyi üzərində yerləşib. Kəlbəcər şəhərini əhatə edən dağların hamısı öz ətəklərini Kəlbəcərin ayaqları altına sərib". Sovetlər dövründə burada dünyanın nadir faydalı mineralları: Söyüdlü, Keyti qızıl yataqları, istisular, rayon tərkibli nadir sular, Şorbulaq, Ağyataq civəsi, Nadirxanlı, Sarıdaş rəngli mərmər yataqları, Dəvəgözü, Keçəldağ perliti və sair faydalı minerallar möcüzə kimi diqqəti cəlb edirdi. Bu məkan vaxtilə həm də Azərbaycanda turizm məkanı kimi də tanınardı. Yalçın qayalara, qıy vuran qartallara, ilan kimi qıvrıla-qıvrıla axan dağ çaylarına turistlər heyranlıqla tamaşa edər, xatirə şəkilləri çəkdirərdilər. Ulu öndər Heydər Əliyev Azərbaycana ilk rəhbərliyində Kəlbəcərin iqtisadiyyatının yüksəldilməsinə ciddi qayğı və diqqət göstərir, məhsul istehsalı və səhiyyənin maksimum səviyyəyə çatdırılması diqqət mərkəzində saxlanılırdı.

90-cı illərin əvvəllərində Vətənimizin zümrüd qaşı olan Kəlbəcər faşist xislətli ermənilər tərəfindən işğal olundu. Sərt qışın qarlı, çovğunlu günlərində kəlbəcərlilər bir çox işgəncələrlə və faciələrlə üzləşdilər. Mülki əhaliyə daşnaklar tərəfindən dəhşətli divan tutuldu. Azərbaycanın o vaxtkı rəhbərlərinin laqeydliyi ucbatından alınmaz qala olan Kəlbəcər düşmən tərəfindən odlara qalandı. Köməksiz qalan insanlar Gəncəyə, Göygöl rayonuna və digər yerlərə pənah gətirdilər. Neçə-neçə günahsız insanlar şəhid və şikəst oldu, əsir götürüldü, huşunu itirərək yollarda qaldı. Bu işğal nəticəsində 200 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş, yaxud girov aparılmışdır. Ən çox itki isə Kəlbəcər şəhərindən uzaqda olan Başlıbel kəndinin taleyinə düşdü: 28 nəfər mənfur

erməni quldurları tərəfindən bir gecədə qətlə yetirildi, 18 nəfər girov götürüldü. 1996-cı il aprel ayının 1-də Kəlbəcərin işğalının 3-cü ildönümündə ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev Kəlbəcər ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, rayonun işğalının səbəblərini araşdırmış, komissiya yaradılmış, kəlbəcərlilərin həyat şəraitinin yaxşılaşdırılması üçün göstəriş və tövsiyələr vermişdir. Məcburi köçkün kimi yaşayan bütün kəlbəcərlilərin qəlbi yurd eşqi ilə döyünür, Murov, Dəlidağ üçün darıxır və onlar inanırdılar ki, gec-tez Kəlbəcər işğaldan azad olunacaq, günlərin bir günündə Azərbaycan oğullarının dəmir yumruğu ermənilərin başına enəcəkdir. Elə də oldu. 2020-ci ildə müzəffər Azərbaycan ordusu, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti sayəsində işğal altında olan Azərbaycan əraziləri azad olundu, o cümlədən də Kəlbəcər də yağı düşməndən təmizləndi, nəhayət ki, burada da üçrəngli Azərbaycan bayrağı dalğalandı. Qürur hissi keçiririk ki, artıq Kəlbəcər də bizimdir. İşğaldan azad olunmuş bu əraziyə qayıdış başlanacaq, Kəlbəcər bərpa olunacaq, müasirləşəcək, turizm diyarına çevriləcək, həmişəki kimi bu gözəl məkanda çal-çağırlı günlər başlanacaqdır...

**Ağdam**



Ağdam deyəndə göz önünə cənnət-misalı Qarabağ gəlir - qartalların qıy vurduğu, başı qarlı uca dağlar, durnagözlü bulaqlar, qayalara çırpıla-çırpıla üzü arana can atan dəlisov çaylar, nəğməkar şəlalələr, gül-çiçəkli yamaclar, yaşıl ormanlar... Ağdam ilk yaşayış məskəni kimi eramızdan əvvəl birinci minillikdə yaranıb. "Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik

qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişib. XVIII əsrin birinci yarısında qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün nümunəyə çevrilib. Bu mənada "Ağdam" günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir. Ağdam inzibati rayonu isə sovetləşmə dövründə, konkret olaraq 1930-cu ildə yaradılıb. Sahəsi 1094 kvadrat kilometr olan rayonun coğrafi relyefi əsasən düzənlik, qismən dağlıqdır. Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. 1988-ci ilin son aylarında Ermənistandan öz ata-baba yurdlarından, daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətindəki doğma, isti ocaqlarından silah gücünə, amansızcasına, vəhşiliklə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdi. 1992-ci ildə Dağlıq Qarabağı bütünlüklə işğal edən Ermənistan ətraf rayonlara da hücum etdi. Xüsusən Ağdama olan hücumların ardı-arası kəsilmədi. 1993-cü il may ayının 11-dən etibarən şiddətlənən hərtərəfli hücum və təcavüz iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı. Şücaətlə döyüşən ağdamlıların və Ağdam uğrunda şəhid olan Vətən övladlarının ruhu da o gün əsir düşdü, girov qaldı. Neçə-neçə böyük sənətkarı, elm-mədəniyyət xadimlərini yetişdirən torpağın bir hissəsi yağı caynağına keçdi. Və uzun illik həsrətdən sonra Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar. Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir. "Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli

Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi". Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Təbii ki, Qarabağın, o cümlədən Ağdamın rəmzi, şöhrət simvollarından biri, bəlkə də birincisi musiqidir. O da gizli deyil ki, Ağdam Azərbaycanın musiqi mədəniyyəti tarixinə dünya şöhrətli görkəmli sənətkarlar verib. Bu ulu məkanda doğulub boya-başa çatan mədəniyyət və incəsənət korifeyləri, musiqiçilər, o cümlədən görkəmli muğam ustadları da dillərdə dastandır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağdamın hazırda mərkəzi sayılan Quzanlı qəsəbəsində milli memarlıq ənənələrini özündə əks etdirən möhtəşəm Muğam Mərkəzinin tikilərək sənətsevərlərin istifadəsinə verilməsi rayonun mədəni həyatında son dərəcə əlamətdar bir hadisəyə çevrildi.Bu gün böyük gücə malik olan Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizlədi və üçrəngli bayrağımızı Qarabağda dalğalandırdı. Bəli, əziz oxucu 8 Noyabr Zəfər günümüzün qeyd olunması ilə əlaqədar yolumuzu "8 Noyabr" stansiyasından salırıq. Sərnişinlər qatara bəstəkar Oktay Zülfüqarovun "Şənlən, mənim xalqım" musiqisinin sədaları altında daxil olurlar. Çox sevincli və qürurluyuq.

## Nəticə

Noyabr ayı müstəqil Azərbaycanın müasir tarixində artıq zəfər, qələbə ayı kimi qalacaqdır. Xalqımızın işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda 27 sentyabr tarixində başlatdığı İkinci Qarabağ – Vətən Müharibəsi 10 noyabr tarixində Azərbaycanın qələbəsi, düşmənin kapitulyasiyası ilə sona çatdı. 44 günlük hərbi döyüşlər nəticəsində 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr döyüş meydanında azad edildi. Noyabrın 8-də cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi müjdəsini xalqımıza verdi. Bundan sonra imzalanan üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Əldə olunan razılaşmaya əsasən, 1 dekabr 2020-ci il tarixinədək Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarılacaq, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bəli, xalqımızın 30 illik həsrətinə son qoyuldu. Azərbaycanın ərazi bütövlüyü, süverenliyi bərpa edildi, ədalət yerini tapdı. İnsanlar öz doğma yurd, yuvalarına qayıdacaqlar, biz öz tarixi torpaqlarımıza qayıdacağıq. Cənab Ali Baş Komandanın "Qarabağ Azərbaycandır və nida" ifadəsi gerçəkləşdirildi. Bu yolda neçə-neçə qəhrəman igid oğullarmız şəhid oldu, yaralandı, Vətən uğrunda qanından, canından keçdi. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin. Bu gün hər birimiz müasir Azərbaycan tarixinin ən qürurlu, fəxarətli günlərini yaşayırıq. 30 ildir ki, xalqımızın torpaq həsrətinə son qoyuldu, düşmən üzərində böyük qələbə əldə edildi. Məhz cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin həm siyasi arenada, həm də döyüş meydanındakı gücü, qüdrəti sayəsində Azərbaycan tarixi ədaləti bərpa etdi. Ölkəmiz bütün dünyaya öz siyasi və hərbi gücünü nümayiş etdirdi. Bu müharibədə ən əsas məqamlardan biri Xalq-Ali Baş Komandan birliyi oldu. Xalqımız cənab Ali Baş Koman-

danın ətrafında bir yumruq kimi birləşərək Ona və ordumuza böyük dəstək verdi. Qəhrəman, yenilməz Ordumuz isə döyüş meydanında cənab Ali Baş Komandanın əmrlərini şərəflə icra edərək düşmənə ağır zərbələr endirdi və işğal altındakı torpaqlarımızı azad etdi.

## Ədəbiyyat siyahısı

**1.Ağaşahqızı, Y.** Azadlığın mübarək, Füzuli!: Füzuli həsrətinin vüsala qovuşduğu tarix - 17 oktyabr / Yaqut Ağaşahqızı // İki sahil.- 2021.- 16 oktyabr.- S.14.

**2.Alışanov, A.** 44 günlük Zəfər tariximiz: Bizim "Qarabağ Azərbaycandır" kəlməsini Azərbaycan tarixinə əbədi həkk edən Liderimiz var / Akif Alışanov // Səs.- 2021.- 29 sentyabr.- S.11.

**3.Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır:** Prezident İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibəsi // Xalq qəzeti.- 2021.- 29 sentyabr.- S.1, 2-3.

**4.Baxşəliyev, R.** 15 oktyabr 2020-ci il: Zəfər gündəliyi: Füzuli / Rəşad Baxşəliyev // Xalq qəzeti.- 2021.- 15 oktyabr.- S.13.

**5.Baxşəliyev, R.** Güc simvolu: Strateji əhəmiyyətə malik hərbi təlimlər Müzəffər Azərbaycan Ordusunun döyüş qabiliyyətini daha da artırır / Rəşad Baxşəliyev // Azərbaycan.- 2021.- 24 sentyabr.- S.1, 7.

**6.Bayramov, V.** Zəfər tarixinin xronikası: 6 oktyabr 2020-ci il / Vaqif Bayramov // Xalq qəzeti.- 2021.- 6 oktyabr.- S.14.

**7.Bayramov, V.** Azərbaycan bundan sonra müzəffər ölkə kimi əbədi yaşayacaq / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 6 oktyabr. - S.11.

**8.Bayramov, V.** Bu gün Azərbaycan qalib dövlət kimi yaşayır / Vaqif Bayramov // Xalq qəzeti.- 2021.- 9 oktyabr.- S.1.

**9.Bayramov, V.** İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir / Vaqif Bayramov // Xalq qəzeti.- 2021.- 29 sentyabr .- S.6.

**10.Bayramov, V.** Qələbə məramı ilə başlayıb böyük Zəfərlə bitən Vətən müharibəsi / V. Bayramov // Xalq qəzeti.- 2021.- 28 sentyabr.- S.13.

**11.Bayramova, Z.** 44 günlük vətən müharibəsi zəfər və şərəf tariximizdir! / Z. Bayramova // Səs.- 2021.- 29 sentyabr.- S.13.

**12.Bayramova, Z.** Şəhidlərimiz heç vaxt unudulmayacaqlar! / Z. Bayramova // Səs.- 2021.- 29 sentyabr.- S.14.

**13.Cəfərov, N.** Böyük zəfərin tərənnümü / Nizami Cəfərov //

Ədəbiyyat.- 2021.- 18 sentyabr.- S.8.

**14.Cəfərov, Z.** Komandan qətiyyətinin ifadəsi / Zahid Cəfərov // Azərbaycan.- 2021.- 29 sentyabr.- S.8.

**15.Əhmədov, Ə.** Böyük siyasətin möhtəşəm zəfəri / Əli Əhmədov // Azərbaycan.- 2021.- 29 sentyabr.- S.1, 6.

**16.Əliyeva, J.** Biz gəlmişik, öz torpağımızda, öz yurdumuzdayıq - Vətənimizdə, Qarabağımızdayıq! / Jalə Əliyeva // Xalq qəzeti.- 2021.- 30 sentyabr.- S.5.

**17.Əmiraslanov, Ə.** "Dəmir yumruq"la yazılan zəfər xalqımızın əbədi öyünc mənbəyidir / Əhliman Əmiraslanov // Xalq qəzeti.- 2021.- 1 oktyabr.- S.2.

**18.Fərəcova, Z.** Zəfər salnaməmizin başlanğıc günü / Zöhrə Fərəcova // Azərbaycan.- 2021.- 1 oktyabr.- S.8.

**19.Fətiyev, X.** Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur / Xanlar Fətiyev // Azərbaycan.- 2021.- 13 oktyabr.- S.4.

**20.Füzuli azaddır! Füzuli Azərbaycandır!:** "On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində, həm də Azərbaycan dövlətinin tarixində əbədi qalacaq" // Xalq qəzeti.- 2021.- 17 oktyabr.- S.8.

**21.Həsənov, Ə.** Analoqu olmayan hərbi əməliyyat / Əli Həsənov // Azərbaycan.- 2021.- 28 sentyabr.- S.9.

**22.Həsənov, İ.** Bayraqların hər biri əbədi müstəqillik və azadlıq atəşinin parlaq rəmzi idi / İ. Həsənov // Xalq qəzeti.- 2021.- 29 sentyabr.- S.14.

**23.Həsənova, Ş.** 44 günlük Vətən müharibəsi Azərbaycanın qüdrətini dünyaya nümayiş etdirdi / Şəbnəm Həsənova // Xalq qəzeti.- 2021.- 9 oktyabr.- S.3.

**24.Hüseynova, İ.** Unutmamalıyıq, unutdurmamalıyıq / İradə Hüseynova // Azərbaycan.- 2021.- 29 sentyabr.- S.9.

**25.Hüseynova, R.** Şəhidlər ölməz, Vətən bölünməz! / R. Hüseynova // Səs.- 2021.- 29 sentyabr.- S.10.

**26.Xasayeva, S.** 27 sentyabr zəfərin başlanğıc tarixidir... / Səbinə Xasayeva // Xalq qəzeti.- 2021.- 25 sentyabr.- S.7.

**27.İmanquliyev, B.** Anım günü Zəfərimizin ideoloji cəbhədə

davamıdır / Bahadur İmanquliyev // Azərbaycan.- 2021.- 1 oktyabr.- S.8.

**28.İmanquliyev, B.** Qələbə həm də iqtisadi gücümüzün nümayişi idi: Vətən müharibəsinin möhtəşəm Zəfəri / Bahadur İmanquliyev // Azərbaycan qəzeti.- 2021.- 26 sentyabr.- S.10.

**29.İsabalayeva, İ.** Şuşaya zəfər yolu Hadrutdan başladı / İlhamə İsabalayeva // Azərbaycan.- 2021.- 9 oktyabr.- S.1, 3.

**30.İsmayılova, S.** Vətən uğrunda canını qurban verənlər heç vaxt unudulmurlar / Səadət İsmayılova // Xalq qəzeti.- 2021.- 25 sentyabr.- S.7.

**31.44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi** // Mədəniyyət.- 2021.- 29 sentyabr.- S.1,2.

**32.Məmmədli, N.** Zəfərə gedən yolun başladığı gün / N. Məmmədli // Mədəniyyət.- 2021.- 29 sentyabr.- S.4.

**33.Məmmədov, C.** Şanlı zəfərimizin bir ili / C.Məmmədov // Respublika.- 2021.- 30 sentyabr.- S.8.

**34.Mirzə, M.** Şanlı Qələbə: Vətən müharibəsi Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya göstərdi / M. Mirzə // Respublika.- 2021.- 29 sentyabr.- S.9.

**35.Mirzəbəyli, İ.** Qarabağın yeni dövrü başlayır / İttifaq Mirzəbəyli // Xalq qəzeti .- 2021.- 13 oktyabr.- S.1.

**36.Möhbalıyev, S.** Qalib sərkərdə / Səttar Möhbalıyev // Azərbaycan.- 2021.- 29 sentyabr.- S.7.

**37.Musayeva, Y.** Haqqın Zəfər yürüşü: Müzəffər Sərkərdənin qüdrətli Ordusu / Yasəmən Musayeva // Azərbaycan.- 2021.- 29 sentyabr.- S.1, 10.

**38.Musayeva, Y.** Şanlı Zəfər tarixi irsimizi də xilas etdi / Yasəmən Musayeva // Azərbaycan.- 2021.- 25 sentyabr.- S.1, 6.

**39.Müsəllimov, M.** Milli qürurumuzun təntənəsi / Məmməd Müsəllimov // Respublika.- 2021.- 29 sentyabr.- S.9.

**40.Mustafayev, F.** Qürur və ehtiramla anılan gün / F.Mustafayev // Respublika.- 2021.- 30 sentyabr.- S.8.

**41.Nəsirov, E.** İlham Əliyev: Adını ölkə və dünya hərb tarixinə həkk etmiş müzəffər sərkərdə / Elman Nəsirov // Xalq

qəzeti.- 2021.- 28 sentyabr.- S.9-10.

**42.Nurullayeva, K.** Azərbaycan bir il əvvəl XXI əsrin müharibəsinin qalibi kimi tarix yazdı / Könül Nurullayeva // Xalq qəzeti.- 2021.- 29 sentyabr.- S.10.

**43.Orucova, N.** 27 sentyabr: Milli birliyin zirvəsi / N. Orucova // İki sahil.- 2021.- 25 sentyabr.- S.13.

**44.Paşayeva, Q.** Azərbaycan dövlətinin haqlı mövqeyi dünya ictimaiyyətinə obyektiv çatdırılır / Qənirə Paşayeva // Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.5.

**45.Paşayeva, Q.** Dəmir məntiqdən "dəmir yumruğ"a / Qənirə Paşayeva // Xalq qəzeti.- 2021.- 29 sentyabr.- S.8.

**46.Paşayeva, Q.** Vətən müharibəsində azad edilən ilk şəhərimiz - Cəbrayıl / Qənirə Paşayeva // Xalq qəzeti.- 2021.- 6 oktyabr.- S.13.

**47.Prezident İlham Əliyevin** Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfəri: Hadrut qəsəbəsində yeni məscidin təməli qoyulub // Xalq qəzeti.- 2021.- 12 oktyabr.- S.1.

**48.Qarabağın yeni dövrü başlayır** // Azərbaycan.- 2021.- 12 oktyabr.- S.1-5.

**49.Qasımov, E.** Şərəf və ləyaqət zülmə və şərə qarşı: 2020-ci il sentyabrın 27-si Azərbaycanın çağdaş tarixində müstəsna yer tutur / Emin Qasımov // Respublika.- 2021.- 28 sentyabr.- S.11.

**50.Quluzadə, Ş.** Şəhidlər: Şərəf və İftixarımız / Şəlalə Quluzadə // Respublika.- 2021.- 29 sentyabr.- S.9.

**51.Qurbanqızı, Z.** Tariximizin şanlı və qürurverici səhifəsi / Z. Qurbanqızı // Respublika.- 2021.- 25 sentyabr.- S.1, 7.

**52.Rəcəbli, H.** Şərəf və qəhrəmanlıq salnaməsi / Hadı Rəcəbli // Azərbaycan.- 2021.- 1 oktyabr.- S.6.

**53.Rzayev, T.** Zəfər yolunun başlanğıcı / Tahir Rzayev // Azərbaycan.- 2021.- 29 sentyabr.- S.8.

**54.Salmanlı, R.** Şanlı tariximiz / Rəhman Salmanlı // Azərbaycan.- 2021.- 1 oktyabr.- S.8.

**55.Səninlə fəxr edirik, Azərbaycan Ordusu!:** Zəfər gündəliyi // Xalq qəzeti.- 2021.- 28 sentyabr.- S.11.

**56.Sucayev, Ə.** Qalib ölkənin qələbə sevinci / Əfsun Sucayev // Xalq qəzeti.- 2021.- 1 oktyabr.- S.3.

**57.Süleymanov, M.** Xalq, Lider, Ordu birliyinin möhtəşəm Zəfəri / Mehman Süleymanov // Xalq qəzeti.- 2021.- 30 sentyabr.- S.3-4.

**58.Süleymanova, L.** Gözün aydın, Azərbaycan!: Zəfərinlə daha möhtəşəm uğurlara doğru inamla / L.Süleymanova // İki sahil.- 2021.- 25 sentyabr.- S.15.

**59.Şahmuradov, H.** İki əsrlik tariximizin şanlı Qələbəsi / Hikmət Şahmuradov // Azərbaycan.- 2021.- 6 iyun.- S.5.

**60.Şəhidlər ölməz-Vətən bölünməz!**: Anım Günündə Bakıda keçirilən yürüş Azərbaycana tarixinin ən böyük Zəfərini bəxş etmiş Vətən övladlarının ruhuna sonsuz ehtiramın nümayişi idi // Mədəniyyət.- 2021.- 29 sentyabr.- S.1, 2.

**61.Vəliyev, A.** Müzəffər Komandanın Zəfər yolu / Ağalar Vəliyev // Azərbaycan.- 2021.- 28 sentyabr.- S.10.

**62.Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib**: Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər // Xalq qəzeti.- 2021.- 28 sentyabr.- S.2-3.

**63.Zəfər tarixinin xronikası**: 14 oktyabr 2020-ci il // Xalq qəzeti.- 2021.- 14 oktyabr.- S.8.

**64.Zəfər tarixinin xronikası**: 12 oktyabr 2020-ci il // Xalq qəzeti.- 2021.- 12 oktyabr.- S.11.

**65.Zəfər tarixinin xronikası**: 9 oktyabr 2020-ci il // Xalq qəzeti.- 2021.- 9 oktyabr.- S.5.

**Milli qürur, qələbə və zəfər bayramı**
(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**